# Jurnalist ömrünün əbədiyyət səhifəsi




**"Media 4-cü hakimiyyətdir deyirlər. İnternet dövründə deyə bilərəm ki, artıq ikinci hakimiyyətdir". Bu fikirləri Prezident İlham Əliyev III Bakı Beynəlxalq Humanitar Forumundakı çıxışında söyləmişdir.**

Bəli, mətbuat ictimai rəyin formalaşmasında yaxından iştirak edir, vicdanlı jurnalistlər hər şeydən yazır, tənqid edir, cəmiyyətin güzgüsü kimi düzüdüz, əyrini-əyri göstərirlər.

Milli mətbuatımızın yaranmasının 150 ili tamam olur. Əsası "Əkinçi" ilə qoyulan, sonralar "Füyuzat", "Molla Nəsrəddin"... kimi mətbu orqanları ilə təkamül edən Azərbaycan mətbuatı ötən əsrdə keşməkeşli yollardan keçdi, müxtəlif dövrlərin ideologiyası əsasında fəaliyyət göstərdi, vətənimizin ağrı-acılarını, problemlərini diqqət mərkəzinə çəkdi. Mirzə Cəlil öz qələmi ilə bu dərdləri anlatmağa çalışdı, anlamamaq dərdi isə ürəyimizin ağrısına çevrildi: "Əcnəbi göydə balonlarla gəzir, Biz hələ avtomobil minməyiriz", - deyib xalqının lüt-uryan çocuqlarını elmə, təhsilə çağıran Sabirin satiraları mətbuatımızın ən ümdə amalının ifadəsi oldu. İsmayıl bəy Qaspiralının "Fikirdə, əməldə bir!" çağırışı, milli duyğu, hiss, güc, birlik, həmrəyliklə yola düşən "Füyuzat"ın sətirlərindən süzülən Əli bəyin "İslamlaşmaq, avropalaşmaq, türkləşmək" qayəsi beyinlərə, ürəklərə hakim kəsildi, millətimizə, xalqımıza öz həyatları bahasına hürriyyət istədilər. Bu ənənə sonra da yaşadı sələfləri kimi, onların xələfləri də qələmlərini süngüyə çevirib söz savaşına çıxdılar, həqiqəti yazdılar, ədalət istədilər. Sovet İttifaqının 70 illik buxovlarından yenicə azad olan xalqımızın müstəqillik arzularını gözlərində qoymaq, təzə-təzə cücərən azadlıq ideyalarını elə yerindəcə boğmaq məqsədilə ortaya atılan Qarabağ münaqişəsi 30 il çəkdi. Ermənilər torpaqlarımızın 20 faizini işğal etdi, bir milyondan artıq soydaşımız qaçqına, məcburi köçkünə çevirdi, yeraltı-yerüstü sərvətlərimizi talandı, günahsız insanlar qətlə yetirildilər. Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində xidməti vəzifələrini yerinə yetirərkən şəhid olmuş 14 jurnalistin hər biri qəhrəmanlıq dastanı yazdı.

İlk şəhid qadın jurnalist - Salatın Əsgərova. Milli mətbuatımızın tarixinə onun adı belə yazıldı. Mətbuat aləminə gələndə Ermənistanla Azərbaycan arasında problemlər təzə-təzə başlayırdı. Ermənilər ölkəmizə qarşı təxribatlar törədir, torpaq iddiaları qaldırırdılar. Salatın yazdığı məqalələrdə bu mövzulara xüsusi toxunurdu. Ermənistan Azərbaycana qarşı açıq müharibəyə başlayanda bu gənc jurnalist döyüş bölgələrindən, qaynar nöqtələrdən xəbərlər, məqalələr hazırlayır, çalışdığı "Molodyoj Azerbaydjana" qəzetində çap etdirirdi. Dəfələrlə ölümün pəncəsindən xilas olan Salatını heç nə durdura bilmirdi, o, cəbhə bölgəsinə gedərək baş vermiş hadisələri ictimaiyyətə çatdırmağı özünün vəzifə borcu bilirdi. Sonuncu yazısında Xocalıdakı xüsusi təyinatlı polis dəstəsinin fəaliyyətindən, azərbaycanlı döyüşçülərin igidliyindən bəhs edirdi. Yazı 1991-ci il yanvarın 3-də "Molodyoj Azerbaydjana" qəzetində dərc olunmuşdu. Bundan bir neçə gün sonra, yanvarın 9-da Qarabağa növbəti ezamiyyəti zamanı düşmən tərəfindən qəddarcasına qətlə yetirildi. Peşəsindən, sevimli övladı Ceyhundan əbədi ayrıldı, şəhidlik zirvəsinə ucaldı.

Qarabağ müharibəsinin başlandığı gündən bütün fəaliyyətini bu istiqamətə yönəldən Alı Mustafayevin şəhidlik taleyi də ürək göynədir. Qarakənd faciəsi, vertolyot qəzası... 1991-ci il 20 noyabr. Onda Alının 39 yaşı vardı, üç oğul atasıydı. Sonbeşikləri Özal yenicə doğulmuşdu. Alı tez-tez cəbhə bölgələrinə gedir, reportajlar hazırlayır, həqiqəti, reallıqları xalqa çatdırmaq istəyirdi. 1990-cı ilin yanvar faciəsində düşmən güllələri altında hadisə yerindən çəkilişlər edən Alının şəhidlərin dəfn mərasimindən hazırladığı reportajını indi də ürək ağrısı ilə xatırlayıram: "Dəli bir ağlamaq keçir könlümdən", - deyən Alı göz yaşlarına hakim kəsilə bilmirdi. Sanki ürəyinə dammışdı, özünün də bu müqəddəs məkana tezliklə köçəcəyinə. İndi Alı çəkiliş qrupunun üzvləri operator Fəxrəddin Şahbazov və işıqçı Arif Hüseynzadə ilə yanaşı Şəhidlər xiyabanında uyuyur.

Xocalı faciəsi tariximizin qara ləkəsi oldu. Düşmənin törətdiyi bu soyqırımı vaxtilə örtbasdır etməyə çalışanlar da tapılmışdı. Nə yaxşı ki, Çingiz vardı, bu faciənin ürək titrədən, həqiqəti əks etdirən kadrları bir-bir lentə almışdı. Bütün dünyaya, doğma məmləkətinə sülh, əmin-amanlıq istəyən Çingiz Mustafayev kamerasının gözlüyündən heç nəyi qaçırmamışdı, ürək ağrısı, göz yaşları ilə bu böyük faciəmizi bütün dünyaya yaymışdı. 1992-ci ildə isə özü Ağdamda çəkilişlər edərkən şəhid olmuşdu.

2021-ci ildə Kəlbəcərdə erməni minasının qurbanı olan AZƏRTAC və AZTV-nin əməkdaşları Məhərrəm İbrahimov və Sirac Abışovun faciəli ölümləri də bizi çox yandırdı, ürəklərimizi sızlatdı.

Bir qəzet yazısında şəhid jurnalistlərimizin hamısı haqqında yazmaq təəssüf ki, mümkün deyil. Ancaq düşünürəm ki, bu kiçik yazı onların hər birinin ruhuna ən böyük ehtiramdır. Qarabağımızı, doğma Azərbaycanımızı azad görmək istəyən, bu amal uğrunda həyatını qurban verən hər bir həmkarımız adını tariximizin şanlı səhifələrinə qızıl hərflərlə yazdı. Bu gün həm də bir əsr yarım yaşı olan mətbuatımızın inkişafında öz payı olan şəhid jurnalistlərimizin bayramıdır.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**